# 2024-cü ilin II rübü üzrə nəticələr

## İSTEHLAKÇI HÜQUQLARI VƏ VƏTƏNDAŞ MÜRACİƏTLƏRİ

2024-cü ilin II rübü üzrə istehlakçıların hüquqlarının qorunması, abonentlərin elektrik və istilik enerjisi, təbii qazla təchizatı və digər məsələlərlə bağlı Agentliyə bilavasitə və Energetika Nazirliyindən 1820 müraciət daxil olub.

**Bunlardan:**

Elektrik enerjisi təchizatı ilə bağlı 184-ü məlumat üçün olmaqla cəmi 1660 müraciət;

Təbii qaz təchizatı ilə bağlı 22-si məlumat üçün olmaqla cəmi 134 müraciət;

İstilik təchizatı ilə bağlı 2-si məlumat üçün olmaqla cəmi 10 müraciət;

3-ü məlumat üçün olmaqla 16 müraciət isə digər məsələlərlə bağlı olub.

**1820 müraciətdən:**

1027 müraciət Agentlik tərəfindən araşdırılıb və cavablandırılıb (18 müraciət müvafiq qaydada baxılması və tədbir görülməsi üçün aidiyyəti quruma göndərilib);

6 müraciət Energetika Nazirliyi ilə müştərək icra olunub;

576 müraciət hazırda baxılma prosesindədir;

211 məlumat xarakterli müraciətdən 89-u qaldırılan problemlərin həlli ilə bağlı təşəkkür məktubu olub.

## ELEKTRİK VƏ İSTİLİK ENERJİSİ, QAZ TƏCHİZATI

Yeni, yenidən qurulan, istifadə olunmasına icazə verilmiş gücü artırılan və enerjitəchizat sxemini dəyişən 40 tikinti obyektinin xarici elektrik enerjisi təchizatı üçün quraşdırılmış elektrik qurğularına istismara buraxılış aktı verilib;

67 razılaşdırılmış layihəyə əsasən tikintisi başa çatdırılmış sənaye qaz qurğularının istismarına icazə verilib;

“Azərenerji” ASC və “Azərişıq” ASC-nin nümayəndələrinin iştirakı ilə 45 hesablaşma elektrik sayğacının texniki vəziyyətinə baxış keçirilib;

## İNZİBATİ XƏTA HAQQINDA İŞLƏRƏ BAXILMA

Agentliyin səlahiyyətlərinə aid olan Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri üzrə 117 inzibati xəta haqqında işə baxılıb, onlardan 114 iş üzrə inzibati tənbeh vermə haqqında qərar, 3 iş üzrə isə icraata xitam verilməsi barədə qərar qəbul olunub.

## BÜDCƏDƏN MALİYYƏLƏŞƏN MÜƏSSİSƏLƏRDƏ KEÇİRİLƏN NƏZARƏT TƏDBİRLƏRİ

Elektrik qurğularının texniki istismarı, təhlükəsizlik texnikası qaydalarına əməl olunması və elektrik enerjisindən istifadənin vəziyyətinin araşdırılması məqsədilə 300 nəzarət tədbiri keçirilib;

Qazdan səmərəli istifadənin, “Qazdan istifadə Qaydaları”nın və qaz qurğularının etibarlı istismarının, həmçinin digər normativ hüquqi aktların tələblərinə əməl olunmasının vəziyyətinin araşdırılması məqsədilə 248 nəzarət tədbiri keçirilib.

## PEŞƏ BİLİKLƏRİNİN YOXLANILMASI

Agentlik tərəfindən hesabat dövrü ərzində 61 müəssisədə 163 nəfər olmaqla elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin texniki istismar, təhlükəsizlik texnikası qaydaları üzrə peşə bilikləri yoxlanılıb, yoxlama nəticəsində biliklərin artırılması üzrə təkliflər verilib, bu istiqamətdə müvafiq şəxslərə metodiki yardım göstərilib.

## TEXNİKİ ŞURALAR

15 “ASAN xidmət", 3 “ASAN Kommunal” mərkəzi və 3 KOB evində (Kiçik və orta biznes evləri) fəaliyyət göstərən Texniki Şuralara sahibkarlıq obyektlərinin elektrik şəbəkəsinə qoşulması ilə bağlı daxil olan 559 müraciət qəbul edilərək icra edilib.